**Soçi Qış Olimpiadası: Az□rbaycanın medala "ümidi yoxdur"**
11.01.14 15:34



Soçidə keçiriləcək XXII Qış Olimpiya Oyunlarına Azərbaycan beş legionerlə qatılır.

Dalğatv BBC Azərbaycancaya istinadən xəbər verir ki , iki idman növü üzrə yarışa qatılacaq ölkəni idmançıl ar-xizəkçilər Patrick Brahner (Avstriya), Cedric Notz (İsveçrə) və Gaia Bassani Antivari (İtaliya) və fiqurlu konkisürmə cütlüyü Alexei Sitnikov və Yuliya Zlobina (Rusiya) təmsil edəcək.

Azərbaycanın “idman ölkəsi” olduğunu dəfələrlə təkrar edən rəsmilərin açıqlamaları bu Olimpiada ərəfəsində o qədər də nikbin səslənmir.

“İdmançılar o qədər güclü idmançılar deyil ki, medala iddialı olaq, amma əlbəttə ki, müqayisəli götürəndə nisbətən yaxşı nəticələr gözləyirik, böyük iddiamız yoxdur”, Soçi Qış Olimpiya Oyunlarında Azərbaycan nümayəndə heyətinin rəhbəri, Milli Olimpiya Komitəsinin beynəlxalq əlaqələr idarəsinin rəisi Könül Nurullayeva deyir.

Azərbaycanın “sadəcə iştirak üçün” oyunlara qatıldığını deyən Milli Olimpiya Komitəsi (MOK) bu yarışmada ölkənin adının çəkilməsinin önəminidiqqətə çatdırır. Hətta müqavilə bağlanan idmançıların dünya professionalları arasında olduğu bildirilsə də, Azərbaycan ümidli görünmür.